Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası




# Bir dəqiqəlik sükut..

**27 sentyabr – Anım günü münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2022**

**Tərtibçi:** **Ülkər Cabarova**

**Redaktor:** **Ruhiyyə Məmmədli**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**“Bir dəqiqəlik sükut....”** 27 sentyabr – Anım günü münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed.C.Ülkər; ixt.red. və burax. məsul Ş. Qəmbərova; red. R.Məmmədli - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2022. –56 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2022**

## Sərəncam

Azərbaycan Respublikasında Anım Gününün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı
02 dekabr 2020, 12:45
Ermənistanın Azərbaycana qarşı 2020-ci il sentyabrın 27-dən başlayan növbəti hərbi təcavüzünə cavab olaraq, Azərbaycan xalqı işğal altındakı torpaqlarımızın azad edilməsi məqsədilə Vətən müharibəsinə başlamışdır.
Haqq və Şərəf işimiz olan, Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda gedən mübarizədə qəhrəmanlıq göstərən əsgər və zabitlərimiz, arxa cəbhədə çalışan mülki insanlarımız, bütövlükdə xalqımız əzm və iradə, bir yumruq kimi birlik və həmrəylik nümayiş etdirərək, düşmənə sarsıdıcı zərbələr endirmişdir.
Azərbaycan Ordusunun zəfər yürüşünə dözə bilməyən düşmən təxribatlara əl ataraq, günahsız mülki insanları hədəfə almaqla müharibə cinayətləri törətmişdir.
Həmvətənlərimizin bir çoxu şəhid olmuş, itkin düşmüş, yaralanaraq sağlamlığını itirmişdir. Torpaqlarımız qəhrəman şəhidlərimizin, əsgər və zabitlərimizin, qazilərimizin qanı və canı bahasına işğaldan azad edilmişdir. Müzəffər Ordumuzun bu gün yazdığı tarix sabah daha da güclü inkişaf edəcək, çiçəklənəcək Azərbaycan üçün möhkəm bünövrədir. Bu, eyni zamanda, regionda dayanıqlı və uzunmüddətli sülhü, əmin-amanlığı və təhlükəsizliyi təmin edən mühüm amildir.
Azərbaycan hər zaman mübariz oğul və qızlarının şücaətini yüksək qiymətləndirir, bütün şəhidlərimizin ruhuna ehtiram göstərir, xatirəsini uca tutur. Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan Bayrağını işğaldan

azad edilən torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, qərara alıram:

1. Hər il sentyabrın 27-si Azərbaycan Respublikasında Anım Günü kimi qeyd edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 2 dekabr 2020-ci il.

**Tərtibçidən:**

Anım Günü müharibənin başlandığı gün sentyabrın 27-də keçirilir. Prezident İlham Əliyevin 2020-ci il dekabrın 2-də imzaladığı "Azərbaycan Respublikasında Anım Gününün təsis edilməsi haqqında" sərəncama əsasən qeyd edilir.

Azərbaycan Respublikasında 2020-ci il sentyabrın 27-dən noyabrın 10-a qədər davam edən İkinci Qarabağ müharibəsində həyatını itirən şəhidlərin xatirəsi hörmətlə yad edilir. Vətən müharibəsində Silahlı Qüvvələrimizin 2783 nəfər hərbi qulluqçusu həlak olmuş, yüz nəfərdən artıq hərbi qulluqçumuz itkin düşmüş, min nəfərdən artıq hərbi qulluqçumuz yaralanaraq sağlamlığını itirmişdir. İşğal altında olan torpaqlarımız qəhrəman şəhidlərimizin, əsgər və zabitlərimizin, qazilərimizin qanı və canı bahasına azad olunmuşdur. İlham Əliyev Vətən uğrunda canından keçən şəhidlərimizin xatirəsinə daim yüksək ehtiram göstərir, onların xatirəsinin əbədiləşdirilməsini, eləcə də qazilərimizin müalicəsini və sağlamlıqlarının bərpasını diqqət mərkəzində saxlayır. Vətən müharibəsi bizim şanlı tariximiz, şəhidlər və qazilər qürur mənbəyimizdir. Respublikamızın suverenliyi və ərazi bütövlüyü uğrunda gedən mübarizədə qəhrəmanlıq göstərən əsgər və zabitlərimiz, arxa cəbhədə çalışan mülki insanlarımız, bütövlükdə xalqımız əzm və iradə, bir yumruq kimi birlik və həmrəylik nümayiş etdirərək, düşmənə sarsıdıcı zərbələr endirib. Azərbaycan Ordusunun əks-hücumları qarşısında aciz qalan düşmənin günahsız mülki insanları hədəfə alması, çoxsaylı müharibə cinayətləri xalqımızı qələbə əzmini sarsıda bilməyib. Müzəffər Ordumuzun bu gün yazdığı tarix sabahımız üçün möhkəm bünövrədir.

Azərbaycan xalqı hər zaman mübariz oğul və qızlarının şücaətini yüksək qiymətləndirir, bütün şəhidlərimizin ruhuna ehtiram göstərir, xatirəsini uca tutur.

Birinci vitse-prezident Mehriban xanım Əliyeva da şəhidlərimizin xatirəsinin əbədiləşdirilməsi, şəhid ailələrinin, qazilərin hərtərəfli qayğı ilə əhatə olunmasına xüsusi diqqət yetirir, onun rəhbərlik etdiyi Heydər Əliyev Fondu bu istiqamətdə genişmiqyaslı tədbirlər həyata keçirir. Mehriban xanım Əliyeva şəhidlərimizə hörmət və ehtiramını belə ifadə edib: "Azərbaycan xalqının igid oğulları Zəfər naminə, Azərbaycanın gələcəyi naminə canlarından keçib. Onların hər biri əsl qəhrəman, rəşadət və qorxmazlıq nümunəsidir... Şəhidlərimizin qanı nahaq yerə tökülmədi – biz tarixi ədaləti bərpa etdik, müqəddəs Qələbə qazandıq. Bu Qələbə xalqımızın tarixinə əbədi həkk olundu. Hər birimiz bu Zəfərin nəyin bahasına qazanıldığını yadda saxlamağa borcluyuq. Biz Vətən müharibəsi şəhidlərini heç vaxt unutmayacağıq. Onlar bizim qəlbimizdə daim yaşayacaq".

Bu gün Azərbaycan xalqı, bütün dünya azərbaycanlıları müqəddəs Vətənimiz uğrunda canından keçən şəhidlərimizin xatirəsini dərin ehtiramla anır. Küçə, prospekt və meydanlarda, evlərin balkonlarında üçrəngli bayrağımız dalğalanır. Məscidlərdə, kilsələrdə, sinaqoqlarda Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçmiş Vətən övladlarının ruhuna dualar oxunur. İnsanlar Anım Gününü həm də zəfər və iftixar günü kimi qeyd edirlər.

Bu vəsait 27 sentyabr "Anım günü" münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmışdır.

# Giriş

**Şanlı tariximizi yazanlar və yaşadanlar! 27 sentyabr Anım günüdür! Şəhidlərimizi ehtiramla anırıq!**

Prezident İlham Əliyev Azərbaycan Respublikasında Anım Gününün təsis edilməsi haqqında sərəncam imzalayıb. Sərəncama əsasən, hər il sentyabrın 27-si Azərbaycan Respublikasında Anım Günü kimi qeyd ediləcək. Qeyd edək ki, Ermənistanın Azərbaycana qarşı 2020-ci il sentyabrın 27-dən başlayan növbəti hərbi təcavüzünə cavab olaraq, Azərbaycan xalqı işğal altındakı torpaqlarımızın azad edilməsi məqsədilə Vətən müharibəsinə başlayıb. Haqq və Şərəf işimiz olan, Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda gedən mübarizədə qəhrəmanlıq göstərən əsgər və zabitlərimiz, arxa cəbhədə çalışan mülki insanlarımız, bütövlükdə xalqımız əzm və iradə, bir yumruq kimi birlik və həmrəylik nümayiş etdirərək, düşmənə sarsıdıcı zərbələr endirib. Azərbaycan Ordusunun zəfər yürüşünə dözə bilməyən düşmən təxribatlara əl ataraq, günahsız mülki insanları hədəfə almaqla müharibə cinayətləri törədib. Həmvətənlərimizin bir çoxu şəhid olub, itkin düşüb, yaralanaraq sağlamlığını itirib. Torpaqlarımız qəhrəman şəhidlərimizin, əsgər və zabitlərimizin, qazilərimizin qanı və canı bahasına işğaldan azad edilib. Müzəffər Ordumuzun bu gün yazdığı tarix sabah daha da güclü inkişaf edəcək, çiçəklənəcək Azərbaycan üçün möhkəm bünövrədir. Bu, eyni zamanda, regionda dayanıqlı və uzunmüddətli sülhü, əmin-amanlığı və təhlükəsizliyi təmin edən mühüm amildir.2020-ci il senyatbr ayının 27-si Prezident İlham Əliyevin xalqa müraciət etdi:

- Bu gün səhər Ermənistan silahlı qüvvələri bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək bizim yaşayış məntəqələrimizi, eyni zamanda hərbi mövqelərimizi atəşə tutub. Düşmən atəşi nəticəsində mülki əhali və hərbçilərimiz arasında itkilər, yaralananlar var. Allah şəhidlərimizə rəhmət eləsin! Onların qanı yerdə qalmayacaq, Azərbaycan Ordusu hazırda düşmənin hərbi mövqelərinə atəşlər, zərbələr endirir və bu zərbələr nəticəsində düşmənin bir çox hərbi texnikaları sıradan çıxıb. Bu, erməni faşizminin növbəti təzahürüdür. Son vaxtlar Ermənistanın Azərbaycana qarşı hərbi taxribatları müntəzəm xarakter alib. İyul ayında Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz istiqamətində yenə də artilleriya atəşi nəticasində hərbiçilərimiz və bir mülki şəxs həlak olmuşdu. Heç kəsə sirr deyil ki ilk atəşi, o cümlədən artilleriya atəşini Ermənistan açmış və ilk həlak olanlar da məhz Azərbaycan hərbçiləri olmuşdu. Azərbaycan düşmənə layiqli cavabını verdi və düşmən bir santimetr irəliyə gedə bilmədi. Düşmən dayandırıldı, ölkəmizin ərazi bütövlüyü qorundu. Sarsıdıcı zərbələr nəticəsində Ermənistan tərəfi məcbur olub acı məğlubiyyətlə razılaşdı. Mən bu barədə demişəm, bir daha demək istəyirəm: əgər bizim istəyimiz olsaydı, hərbi döyüşləri Ermənistan ərazisinə keçirə bilərdik. Ancaq bizim Ermənistan ərazisində hərbi hədəflərimiz yoxdur və belə olan halda bir neçə gündən sonra atəş dayandırılmışdı.

Ermənistan bu təxribatı törətməklə hansı məqsədi güdürdü? İlk növbədə, Azərbaycan torpaqlarının işğalı onların planındadır və bunu gizlətmirlər. Onları hərbi-siyasi rəhbərliyi Azərbaycanı yeni işğalla hədələməyə çalışırdı.

Yeni ərazilər uğrunda yeni işğal siyasəti... Budur bu gün Ermənistan hərbi-siyasi rəhbərliyinin siyasəti... Digər səbəb Ermənistanda mövcud olan çox ciddi sosial, iqtisadi və siyasi məsələlərdən ölkə əhalisinin fikrini yayındırmaq və Azərbaycandan düşmən obrazı yaratmaqdır. Daha bir səbəb isə ondan ibarətdir ki, Ermənistan hər vəchlə çalışır ki, danışıqlar prosesi pozulsun və deyə bilərəm ki, buna nail olub. Məhz Ermənistanın riyakar, qeyri-konstruktiv və yalançı siyasəti nəticəsində hazırda danışıqlar faktiki olaraq dayanıb. Növbəti təxribatın törədilməsi məhz bu məqsədləri güdür və bu məqsədlər onlar üçün əsas məqsədlərdir.

İyul ayında Azərbaycan düşmənə layiqli cavabını verdi, öz ərazi bütövlüyünü qorudu və bir daha göstərdi ki, Azərbaycanla hədə-qorxu dili ilə danışan bundan peşman olacaq. Əfsuslar ki, bu, onlar üçün dərs olmadı. Halbuki mən iyul təxribatından sonra demişdim ki. Ermənistanın bu acı məğlubiyyəti onlar üçün dərs olmalıdır.

Avqust ayında Ermənistan növbəti hərbi təxribata əl atdı. Bu dəfə Azərbaycana diversiya qrupu göndərilmişdi. Diversiya qrupunun başçısı Azərbaycan hərbçiləri tərəfindən saxlanılıb və hazırda ifadələr verir. Bu ifadələrdə açıq-aydın göstərilir ki, bu planlaşdırılmış təxribatçı diversiya qrupu Azərbaycana terror aktları törətmək üçün gəlib.

Mülki əhaliyə və hərbçilərimizə qarşı növbəti hərbi təxribat bu gün Ermanistan tərəfindan törədildi və bu dəfə də onlar öz cəzasını alıblar və alacaqlar. Ermənistanın təxribatları bəyanatlarda da öz əksini tapır. Ermənistanın baş naziri bir il bundan əvvəl işğal edilmiş torpaqlarda - Xankəndidə də demişdi ki, "Qarabağ Ermənistandır və nöqtə". Birincisi, bu, yalandır. Qarabağ Azərbaycandır və

mən bu məsələ ilə bağlı öz fikirlərimi dəfələrlə bildirmişəm. Qarabağ Azərbaycandır və nida işarəsi. İkincisi, təxribat xarakterli bu bəyanat faktiki olaraq danışıqlar prosesinə vurulan böyük zərbə idi. Əgər Ermənistanın baş naziri deyirsə ki "Qarabağ Ermənistandır", onda hansı danışıqlardan söhbət gedə bilər?! Bununla paralel olaraq, Ermənistanın rəhbərliyi artıq iki il ərzində dəfələrlə bəyan edir ki, Azərbaycan Ermənistanla yox, qondarma "Dağlıq Qarabağ respublikası" ilə danışıqlar aparmalıdır. Bu da danışıqlar prosesinə vurulan böyük zərbədir. İlk növbədə Azərbaycan heç vaxt oyuncaq xunta rejimi ilə hər hansı bir danışıqlar aparmayacaq. İkincisi, danışıqlar formatını dəyişdirmək cəhdləri bir daha onu göstərir ki, Ermənistanın əsas məqsədi danışıqları pozmaq və status-kvonu saxlamaqdır. Halbuki ATƏT-in Minsk qrupunun həm sədr ölkələrinin dövlət başçıları dəfələrlə bəyan ediblər ki, status-kvo qəbuledilməzdir. Bu da o deməkdir ki, işğala son qoyulmalıdır.

Ermənistanın bizə qarşı təxribatları bu faktlarla bitmir. Bu yaxınlarda bizim qədim Azərbaycanın qədim şəhəri olan Şuşada qondarma kriminal xunta rejiminin başçısının "andiçmə" mərasimi keçirilib. Bu, təxribat deyilmi? Bu, bizə qarşı təhqirdir. Onlar hesab edirdilər ki, biz bu təhqirlə barışacağıq, razılaşacağıq. Onlar bizi şüurlu şəkildə təxribatlara çəkirlər və bunun acı nəticələrini görəcəklər.

Bu yaxınlarda qondarma "Dağlıq Qarabağ respublikası" "parlamenti"nin qədim Azərbaycan şəhəri Şuşaya köçürülməsi haqqında qərar qəbul edildi. Bu, növbəti təxribatdır. Bu yaxınlarda Ermənistanın baş naziri bəyan

etmişdi ki, onminlərlə insanı birləşdirən "könüllü" hərbi birləşmələr yaradılacaq. Bu, nə üçün lazımdır? Bunlar kimə qarşı vuruşacaqlar? Bu, Azərbaycana qarşı bu gün törədilən taxribatın hazırlıq mərhələsi idi. Mən artiq bir neçə dəfə demişdim, o cümlədən bu yaxınlarda BMT kürsüsündan de mişdim ki, Ermənistan yeni müharibəyə hazırlaşır. Ermənistan dayandırılmalıdır va dayandırılacaq.

Ermanistan işğal edilmiş torpaqlarda qanunsuz məskunlaşma siyasəti aparıır. Bu yaxınlarda Livan ermənilərindən ibarət bir neçə ailə Dağlıq Qarabağa, o cümlədən Azərbaycanın qədim şəhəri olan Şuşaya yerlaşdirildi. Bu, hərbi cinayətdir. Bu, Cenevrə Konvensiyasına tamamilə ziddir. Ermənistan bu cinayətə görə cavab verəcək. Bu, bizə qarşı növbəti təxribatdır. İşğal edilmiş torpaqlarda məskunlaşma aparmaq cinayət hesab olunur və bu siyasət Ermənistan tərəfindən uzun illər ərzində aparılır. İş burasındadır ki, Ermənistanda mövcud olan ağır iqtisadi, siyasi və sosial vəziyyətə görə ölkə əhalisi azalır. Ermənistanda demoqrafik böhran yaşanır və onlarda insan resursları yoxdur ki, işğal edilmiş torpaqlarda öz adamlarını yerləşdirsinlər. Ona görə xaricdə yaşayan ermənilərə ümid edirlər. Hazırda bu siyasət davam etdirilir. Bununla paralel olaraq, bizdə olan dəqiq məlumata görə, bizim işğal edilmiş bəzi ərazilərimizdə Ermənistan qanunsuz məskunlaşma aparıb. Bizim rayonlarımızın, kəndlərimizin adları dəyişdirilir. Azərbaycanlıların tarixi irsi silinir. Bizim tarixi abidələrimiz dağıdılır. Azərbaycan məscidləri dağıdılır, təhqir edilir. Bizim məscidlərimizdə Ermənistan inək, donuz saxlayır. Bu, bütün müsəlman aləminə ən böyük təhqirdir. Bizim əcdadlarımızın qəbirləri traktorla dağıdılır. Bunu

edənlər faşistlərdir, vandallardır, vəhşilərdir.Eyni zamanda, işğal edilmiş torpaqlarda bu yaxınlarda keçirilmiş hərbi təlimlər bizim üçün Ermənistanın növbəti təxribatı sayıl malıdır. Çünki bu təlimlərin bir məqsədi var: Azərbaycana hücum etmək, mülki əhalini atəşə tutmaq və yeni torpaqları işğal etmək! Sadaladığım bütün faktlar bir daha onu göstərir ki, bu gün regionda təhlükə mənbəyi Ermənistandır və onun çirkin siyasətidir.

Azərbaycan heç bir təxribata əl atmayıb. Azərbaycan, sadəcə olaraq, öz maraqlarını müdafiə edir, öz mövqeyini dəstəkləyir və öz siyasətini alnıaçıq aparır. Biz dəfələrlə bəyan etmişik ki, Dağlıq Qarabağ əzəli tarixi Azərbaycan torpağıdır və bu, həqiqətdir. Ermənistanın baş naziri deyəndə "Qarabağ Ermənistandır", bu, yalandır. Mən deyəndə ki "Qarabağ Aərbaycandır", bu həqiqətdir. Bütün dünya Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Tarixi adalət bizim tərəfimizdədir. Çünki bu, bizim doğma, dədə-baba torpağımızdır. Beynəlxalq hüquq bizim tərəfimizdədir. Bütün beynəlxalq təşkilatlar Azərbaycanın arazi bütövlüyünü tanıyır. Bütün ölkələr Azərbaycanın arazi bütövlüyünü tanıyır. Beynəlxalq təşkilatlar çərçivəsində qəbul edilmiş qərar va qətnamələr Dağlıq Qarabağın Azərbaycana məxsus olduğunu açıq-aydın təsbit edir. BMT Təhlükəsizlik Şurasının dörd qatnaməsində deyilir ki, erməni silahlı qüvvələri dərhal, tam va qeyd-şərtsiz işğal edilmiş torpaqlardan çıxarılmalıdır. Otuz ilə yaxındır ki, bu qətnamələr kağız üzərində qalır. Otuz ilə yaxındırki, Minsk qrupu çərçivəsində danışıqlar aparılır və bunun sonunda Ermənistan müntəzəm olaraq harbi taxribatlar törətməklə danışıqlar prosesini iflic vəziyyətə salıb. BMT-dən başqa

bütün digər aparıcı beynəlxalq təşkilatlar bizim haqlı mövqeyimizi müdafiə edir. Qoşulmama Hərəkatı BMT-dən sonra ikinci ən böyük beynəlxalq təsisatdır ki, bu gün Azərbaycan bu təsisata sədrlik edir. Onlar münaqişə ilə bağlı ədalətli qətnamə qəbul ediblər. İslam Əməkdaşlıq Təşkilatı adalətli qətnamələr qəbul edib. ATƏT-in qərarları, Avropa Parlamentinin qətnamələri bizim mövqeyimizi dəstəkləyir. Bizim mövqeyimiz beynəlxalq hüquqa və ədalətə əsaslanır. Biz öz torpağımızda vuruşuruq. Bu gün Azərbaycan Ordusu Azərbaycan torpaqlarında düşmənə sarsıdıcı zərbələr endirir. Bu gün Azərbaycan Ordusu öz torpağında Azərbaycanın ərazi bütövlüyünü qoruyur, müdafiə edir. Erməni əsgərinin bizim torpağımızda nə işi var?! Ermənistan ordusunun bizim torpağımızda nə işi var?! Heç kəs üçün sirr deyil ki, "Dağlıq Qarabağ ordusunun tərkibində olan şəxsi heyətin 90 faizi Ermənistan vətəndaşlarından ibarətdir. Ermənistan işğalçı dövlətdir, bu işğala son qoyulmalıdır və son qoyulacaq.

Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir. Qarabağ Azərbaycandır!

Bəli, bu gün biz qalib ölkənin, qalib vətəndaşlarıyıq.

## Keçiriləcək tədbirlər

Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanasının təşkilatçılığı ilə iyunun 14-də Bakı Kitab Mərkəzində qəhrəman tank komandiri, şəhid leytenant, şair Murad Nağıyevə həsr olunmuş "Murad" kitabının təqdimatı keçirildi. Təqdimatın əvvəlində şəhidlərin əziz xatirəsi 1 dəqiqəlik sükutla yad edildi.Tədbirdə kitabın redaktoru İbrahim İlyaslı, şəhid M. Nağıyevin təhsil aldığı 271 saylı orta məktəbinin direktor müavini Rüxsarə Əlizadə, döyüş yoldaşı, baş leytenant Namiq Səfərov, aktyor, dramaturq, aktyor Kamran Ağabalayev, F. Köçərli adına Respublika Uşaq Kitabxanasının direktoru Şəhla Qəmbərova, BKM-nin direktoru Günel Anarqızı, şəhidin ailə üzvləri çıxış edərək, Murad Nağıyev haqqında xatirələrini bölüşdülər və kitab haqqında məlumat verdilər. Ağdam muğam məktəbinin şagirdlərinin ifasında "Qarabağ şikəstəsi", "Xudayar təsnifi" səsləndi. Həmçinin F. Köçərli adına Respublika Uşaq Kitabxanasının əməkdaşlarının ifasında şəhid M. Nağıyevin qələmə aldığı və "Murad" kitabına daxil olunmuş şeirləri dinlənildi. Qeyd edək ki, kitabda 44 günlük Vətən müharibəsində misilsiz qəhrəmanlıq göstərən leytenant Murad Nağıyevin keçdiyi həyat və döyüş yolundan bəhs edilir. Kitaba, həmçinin, Murad Nağıyevin şeirləri, xüsusilə də cəbhədə olarkən qələmə aldığı sətirləri daxil edilmişdir. Azərbaycan Ordusunun leytenantı olan Murad Nağıyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzuli,

Cəbrayıl, Zəngilan və Hadrut istiqamətlərindəki döyüşlərdə vuruşub. Müharibənin birinci dəqiqələrində Kənd Horadizin azad edilməsində, həmçinin Ermənistan Ordusunun strateji obyektlərinin, zirehli texnikasının və canlı qüvvəsinin məhv edilməsi və qənimət götürülməsi zamanı fərqlənib. Murad Nağıyev oktyabrın 11-də Cəbrayıl rayonu istiqamətində şəhid olub. Onun şəhid olduğu ərazi 8 gündən sonra tam nəzarətə götürülə bilib və o, oktyabrın 20-də II Fəxri Xiyabanda dəfn olunub. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Murad Nağıyev ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilib. Kitab təqdimatından olan şəkilləri sizə təqdim edirik.
https://www.youtube.com/watch?v=C4hBoWcPzDY












F.Köçərli adına Respublika Uşaq Kitabxanasının Nağıl otağında nağıl saatı təşkil olundu. Kitabxana əməkdaşları oxucularla “44 fəsil” kitabını müzakirə etdilər. Əvvəlcə kitabxananın əməkdaşları tərəfindən hazırlanmış çarxlı slaydı izlədilər.

**Metodist:** “Anım günü” haqqında maraqlı, qısa məlumat verdi. Ermənistanın Respublikasının ölkəmizə qarşı 2020-ci il sentyabrın 27-dən başlayan növbəti hərbi təcavüzünə cavab olaraq, Azərbaycan Respublikası Silahlı Qüvvələri Ali Baş Komandanın rəhbərliyi altında işğal altındakı torpaqlarımızın azad edilməsi məqsədilə Vətən müharibəsinə başlamışdır. Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda gedən mübarizədə rəşadət göstərən əsgər və zabitlərimiz, arxa cəbhədə çalışan mülki insanlarımız, bütövlükdə xalqımız əzm və iradə, bir yumruq kimi birlik və həmrəylik nümayiş etdirərək, düşmənə sarsıdıcı zərbələr endirmişdir. “44 fəsil” kitabında 44 günlük vətən müharibəsi və zəfər savaşımızın ayrıntıları əks olunmuşdur. Bu kitab Azərbaycan tarixinə əbədi yazılacaq 44 günün möcüzələrindən bəhs edir. 44 günün möcüzələri deyəndə göz

önünə Vətən müharibəsi, torpaqlarımızın azadlığı, müqəddəs amallar uğrunda canından keçən əziz şəhidlərimizin misilsiz qəhrəmanılığı, igid qazilərimizin düşmənə dərs olan şücaəti, rəşadətli Azərbaycan Ordusunun dünya hərb tarixinə yazılacaq parlaq qələbəsi və bu arzuların çin olması üçün Ali Baş Komandanın müdrik sərkərdə istedadına güvənərək, onun rəhbərliyi altında yumruq kimi birləşərək, düşmənin başına "Dəmir yumruq" endirən Azərbaycan xalqının dəyanəti gəlir təbii ki... Kitaba daxil edilmiş hekayələri oxuduqca haldan-hala düşəcək, gah sevinib fərəhlənəcək, gah da mütəəssir olub kövrələcəksiniz. Burada müxtəlif müəlliflərin hərəyə bir hekayəsi olmaqla 44 əsər toplanıb. Bu hekayələrdə 44 günlük müqəddəs savaşın ayrı-ayrı epizodlarının, şəhid, qazi və əsgər valideynlərinin, döyüşçülərin, əzizlərini Vətən uğrunda döyüşə yola salmış insanların hiss və həyəcanlarının hər müəllifin özünəməxsus istedad və ustalıqla qələmə aldığı bədii təsvirini görəcəksiniz. Bu kitab dünyada dillərdə dastan olmuş 44 günlük savaşda xalqımızın gücünü və rəşadətini vəsf etmək yolunda bir töhfədir, möhtəşəm Qələbəmizə bir heykəldir. İnanırıq ki, bu yazı abidəsi oxucuların zövqünü oxşayacaq.

Anım günü ilə əlaqədar kitabxanada yuxarı sinif şagirdlərinin iştirakı ilə bu mövzuda “Dəmir yumruq” – bu gözəl söz adlı kompozisiya təşkil etmək olar. Şagirdlər sevimli uşaq şairimiz  Zahid Xəlilin "Dəmir yumruq dastanı" nı səhnələşdirirlər. . Adından da göründüyü kimi, "Dəmir yumruq dastanı" Azərbaycan dövlət müstəqilliyi əldə etdikdən sonra Qarabağda baş verən hadisələr, nəhayət, ölkəmizin Prezidenti cənab Ali Baş Komandan İlham Əliyev

tərəfindən Qarabağda erməni işğalçıları üzərində tarixi zəfərin qazanılmasına həsr olunub. Bu kitab ideyası və mövzusu, bütün məntiqi və mənası ilə dövlət müstəqilliyinin inkişaf etdirilməsinə, bugünkü günün ideallarına tamamilə cavab verir. Zahid Xəlil Azərbaycanda uşaq ədəbiyyatının yaranması və inkişaf etdirilməsində böyük xidmətləri olan şairdir. Zahid Xəlil Sovet hakimiyyəti illərindən başlayaraq Azərbaycanda uşaq ədəbiyyatının inkişaf etdirilməsinə böyük töhfələr vermişdir. Uşaq ədəbiyyatı sahəsində görkəmli şairimizin içərisində Zahid Xəlil də Azərbaycanda uşaq ədəbiyyatını formalaşdıran, inkişaf etdirən, zənginləşdirən, irəli aparan sənətkarlarımızdandır: "Zahid Xəlil əsasən şeir yaradıcılığı ilə məşğul olur, lakin onun uşaqlar üçün yazdığı nağılvari süjetləri əks etdirən nəsr əsərləri də özünəməxsus dilə, üsluba, orijinal bədii keyfiyyətlərə malikdir. Onun tərcümə və uşaq ədəbiyyatının tədqiqi sahəsində də xidmətləri var. Yəni uşaq ədəbiyyatı anlayışını əhatə edən atributların bütün istiqamətində Zahid Xəlilin böyük əməyi, ciddi fəaliyyəti və uğurları vardır. Uşaq ədəbiyyatına həsr edilmiş ömür uşaqlara həsr edilmiş ömürdür. Uşaqlara həsr edilmiş ömür isə ölkənin gələcəyinə həsr edilmiş ömürdür". "Dəmir yumruq dastanı" Qarabağ savaşında - Vətən müharibəsində Azərbaycan Respublikasının Prezidenti qalib Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış tarixi zəfərə həsr olunub. Əsər "Dəmir yumruq dastanı" adlandığı üçün dastan poetikasının prinsiplərinə əsasən şeirlə nəsrin növbələşməsindən yaranır. Şagirdlərə kitabxanaçı bütün materialları verdikdən sonra, onlara 5 gün ərzində hazırlaşmaları üçün vaxt verir.

"Dəmir yumruq" - bu gözəl söz
El-obanın dilindədir.
Dəmir yumruq dəmir kimi
Bir kişinin əlindədir.

Dəmir yumruq beş barmaqdı,
Amma böyük bir ölkədi.
Cəsarətdi, şücaətdi.
Nə tərəddüd, nə"bəlkə"di.

O anlatdı kimin təpə,
Kimlərin dağ olduğunu.
Kimin nacins olduğunu,
Kimlərin haqq olduğunu.

Hamı gördü həqiqəti,
O ədalət timsalıdı!
Düşmənlərin təpəsində
Bir fəlakət timsalıdı!

O anlatdı yer üzünə,
Məğlub nədi, zəfər nədi.
O adi bir yumruq deyil,
Nağıldakı möcüzədi.

Dəmir kimi, polad kimi
Birləşdirdi insanları.
İlin payız günlərinə,
O qaytardı ilk baharı.

Dəmir yumruq möcüzədi,
Sağdan vurdu, soldan keçdi.
Düşmən kəsdi qabağını
Dağdan vurdu, yaldan keçdi.

Yorulmadı, usanmadı,
Heç dərmədi nəfəsini.
Dəmir yumruq gedib tutdu
Qarabağın zirvəsini.

O yandırdı Qarabağda
Elin sönmüş çırağını.
Yağmalanmış torpağıma
Taxdı zəfər bayrağını.

Haqqı nahaqq etmişdilər.
O qaldırdı haqq səsini.
Onun polad iradəsi
Titrətdi Yer kürəsini.

Dəmir yumruq, ömrüm boyu
Sənə nəğmə deyəcəyəm!
O qüdrətli barmaqlara
Qızıl əlcək hörəcəyəm!

Bayrağım

Üç çiçəkdən yaranmış
Bir çələngdi, bayrağım.
Tünd-qırmızı, yaşıl, göy
Rəngbərəngdi bayrağım.

Adi göy qurşağıdı,
Üç işıqdı bayrağım.
Bu torpağa, bu yurda
Yaraşıqdı bayrağım.

Heç vaxt nuru tükənməz
Üç çıraqdı bayrağım.
Qaranlığın üzünə
Şapalaqdı bayrağım.

Sən ona diqqət elə
Keçən zaman yanından.
Qırmızı rəngi alıb
İgidlərin qanından.

Onu bütün dünyada
Qırmızı rəng tanıdır.
Azadlıqçün çarpışan
Babamın vicdanıdır.

Yaşıl rəngi təmizlik,
Ləyaqət timsalıdır.
"İslamçılıq" deyirlər
Ədalət timsalıdır.

Mavi rəng türkçülükdür.
Türk, yəni basılmaz ər.
Bu ad ilə məşhurdu,
Dünyada çox zəfərlər.

Hər bayram günlərində
Qaldırın bayraqları.
Dünyaya şölə saçsın
Qəlbimin işıqları.

Yayılsın bu dünyaya
Vətənimin haqq səsi.
Yer üzünü bürüsün
Gur işıq şəlaləsi.

## Azərbaycan əsgəri

Ey Qorqud babamızın,
İgid Bamsı Beyrəyi!
Bu torpağın, bu xalqın,
Daim vuran ürəyi.

Vətən dara düşəndə
Şərəf bildin səngəri.
Düşmənə qənim oldun,
Azərbaycan əsgəri.

Xalqın xeyir-duası
Qüvvət oldu qolunda.
Əzdin o nankorları
Haqq, ədalət yolunda.

Döyüş meydanlarında
Möhkəm dedin sözünü.
Qarabağ torpağının
Sən ağartdın üzünü.

Cənab İlham Əliyev
Buraxmadı bir anı.
Mahir komandan kimi
Heyran etdi dünyanı.

Geydi döyüş paltarın
Sıyrıldı qılınc kimi.
Qoymadı Qarabağı
Qalsın bir qaxınc kimi.

Nə qədər ki, dünyada
Hələ var ağlı azlar.
Özgə torpaqlarına
Göz dikən yaramazlar.

Nə qədər ki, hələ də
Acı dadır həqiqət.
Demək ki, burnumuzun
Ucundadır fəlakət.

Nə qədər ki, dünyada
Hökm edəcək yalanlar.
Xəzinələr üstündə
Yatacaqdı ilanlar.

Yekə-yekə məmurlar
Qızaracaq, yanacaq.
Bir qarın yemək üçün
Ədaləti danacaq.

Hələ sənin iş yerin
Səngərlər olacaqdı!
Hələ çox-çox zəfərlər
Arxada qalacaqdı!

Təki dünya durulsun.
Başa vur döyüşləri.
Allah həmdəmin olsun
Azərbaycan əsgəri!

Ey nəhəng türk

Dünya çoxdan tük salır
Türkün nərə səsindən.
Qorxur türk dünyasının
Bir gün birləşməsindən.

Heyif ki, yuxudadı
Millətimin çoxusu.
Güzəranı zəhərdi.
Bal kimidi yuxusu.

Şirin-şirin dəm alır,
Dəm uyuyur qardaşım.
Moldovada qaqauz

Çində uyqur qardaşım.

Qafqazın şimalında
Nə qədər türk yaşayır.
Bir cöngəni tək yeyən
Cəngavər türk yaşayır.

Bu şirin yuxuları
Hansı dərdə yozaq, türk?
Qırğız, tatar, başqurd - türk,
Özbək, türkmən, qazax - türk.

Ey nəhəng Türk millətim,
Bu qədər səbir nədi?
Yatmısan, başın Çində,
Ayağın Sibirdədi.
Üstümüzə nə qədər.
Şər, böhtanlar deyilir?
Bu boyda bir millətin
Haqqı necə yeyilir?!

Sanki böyük bir dağı
Balaca çay aparır.
Pələngin qabağından
Siçanlar pay aparır.

Bir yumruq kimi birləş,
Udaq hər cür cəngi biz.
O zaman adlanarıq
"Nəhəng Türk Pələngi" biz.

Baxın Azərbaycana,
Kükrəyir bir nər kimi.
Tək qovur düşmənini.
İgid kimi, ər kimi.

Adını türk qoyan kəs,
Onun səsinə səs ver!
İgid Ərdoğan kimi
Ona ruh ver, həvəs ver.

Haqqın yanında oldu
Haqq aşiqi Ərdoğan!
Bütün Yer kürəsinin
Yaraşığı, Ərdoğan!

Sən də dara düşəndə
Mən duraram dalında.
Qoymaram tək qalasan,
Aşırımda, dalanda.

Ey nəhəng türk Pələngi,
- Ayağa dur, - deyirəm.
Ədalət toxmağını
Bir yerə vur, - deyirəm.

Dünyanı çaşdırıblar.
Dərələri, dağ bilir.
Haqsıza haqlı deyib
Haqlını nahaqq bilir.

Sən ulusan, müdriksən,
Dədə Qorqud nəslisən.
Bütün Yer kürəsinin
Ədalət nəfəsisən.

Qalx ayağa, səsini
Qat həqiqət səsinə.
Haqqın nə olduğunu
Göstər Yer kürəsinə!

## Şuşa

Nəğmə mətni

Bu şəhərin
Adı Şuşa.
Dağ başında
Adi Şüşə.

Bir Leyləkdi,
Qonub Şişə
Ona görə
Olub Şuşa.

Dan yeridi
Yanaqları.
Bulaqları -
Dodaqları.

Çöllərində
Xarıbülbül.
Yarı çiçək,
Yarı bülbül.

Burum-burum
Dolayları.
Xatırladır
Olayları.

Qarqar çayı
Hey çağlayır.
Gah sevinir
Gah ağlayır.

Bu gün nurdu
Onun suyu.
Qayıdıbdı
Adı, soyu.

Çöl də, el də
Bayram edir.
Quş da, gül də
Bayram edir.

Meşə tökür
Yarpağını.
Təbrik edir
Torpağını.

Gözün aydın,
Şuşam mənim!
Cənnət kimi
Guşəm mənim.

Bu, bir körpə
Nəğməsidi.
Bildirçinin
Şən səsidi.

## Payızım

Baxıram sarı dənizə -
Yarpaqlar çıxıbdı dizə.
Qarabağı verdin bizə,
Sevindi elim, Payızım!

Düşmən hələ atəş açır,
Arxaya baxmayıb qaçır.
Yamaclar təzdən gül açır
Güllənir çölüm, Payızım!

Göydən yerə nur ələnir.
Çöllər yenə cilvələnir.
Dağ kişnəyir, dərə dinir.
Kükrəyir selim, Payızım!

Dərədə böyürtkan dəyib,
Budağını yerə əyib.

Çöldə moruq çiçəkləyib,
Ağzımda dilim, Payızım!

Açılıbdı qara baxdım,
Pərvazlandım - hara baxdım,
Bu payız bahara baxdım,
Sevindi gülüm, Payızım!

Gec qayıdıb, tez qayıdıb,
Bir vəfalı qız qayıdıb!
Saz qayıdıb, söz qayıdıb,
Danışsın dilim, Payızım!

Firudin bəy Köçərli adına Respublika Uşaq kitabxanasında **“Tariximiz-anım günümüz”** –adlı şeir müsabiqəsi keçirdi. Müsabiqədə I-VII siniflər iştirak edirdi. Tədbirdə çıxış edən şagirdlər əllərində bayraq, əsgər formasında səhnəyə daxil oldular. Tədbirdə səsləndirilən şeirlərdən bir neçəsini sizə təqdim edirik. Bu şeirlərdən həmçinin mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filiallarında keçiriləcək tədbirlərdə istifadə oluna bilər.

Vətən müharibəsində
Biz qələbə qazandıq.
Bu gün Anım Günüdür
Qəhrəmanları andıq.

Tarix yazdı igidlər,
Hamısı əzizimizdir.
44 günlük müharibə,
Şanlı tariximizdir!

Dəmir yumruq düşmənin,
Mənfur başını əzdi.
Düşmənlər Qarabağda
Daim qala bilməzdi.

İndi azad Qarabağ
Günbəgün abadlaşır.
Mənim qədim torpağım!
Sənə bu çox yaraşır.

Bizə Zəfər yaşatdı,
İgid oğullarımız.
Hər birini anırıq,
Minnətdarıq hamımız!

Yaşa, Vətən, çox yaşa,
Yaraşır Zəfər sənə!
Alqış, min kərə alqış
Zəfəri bəxş edənə!

*Müəllif: Nicat Ismayılov*

**Şanlı bir gün… şanlı tarix…**

27 sentyabr…
Bu payız səhəri
dolub daşdı,
öz məcrasını aşdı
vüsala susamış,
yatağına sığmayan səbr…
Vətən oğlu – Azərbaycan əsgəri
qarı düşmənimizin –
“dağılmaz” istehkamını,
alaraq ilk kamını
dəlib keçdi.
“Sarsılmaz” mövqelərini,
“topdağıtmaz” səflərini
tarmar edə-edə,
altını üstünə çevirə-çevirə
bölüb keçdi…
Otuz ildir ki,
millətimi bir heç sayan
bu dünyaya gülüb keçdi…
Göstərə-göstərə

açılmasına olmayan gərək
bir aksioma tək
isbatını,
başladı yurdumuzun
zəfər dolu büsatını…
Uğur olsun, Vətən oğlu!..

*Ələsgər Talıboğlu*

**Həsrət bitdi Qarabağ**

Qarabağı işğaldan,
Azad etdi igidlər.
Heç zaman unutmarıq,
Tarix yazdı şəhidlər.

44 gündə düşmənə,
Qəhrəmanlar çəkdi dağ.
30 il ayrı qaldıq,
Həsrət bitdi, Qarabağ.

Keçdi qorxmaz oğullar,
Od-alovun içindən.
Danışacaq nəsillər,
Onların mərdliyindən.

Aylar, illər ötəcək,
Qürurla anacağıq.
Şəhidlər ölməzdilər,
Birgəyik sanacağıq.

Əziz Vətən, can Vətən,
İgidlərin var olsun.
Oğlun, qızın səninlə
Daim bəxtiyar olsun.

*Murad Qoçuoğlu*

Rəşadətin önündə,
düşmən də təslim olur.
Hünərindən danışır,
söz açır, hər kim olur,-
Azərbaycan əsgəri.

Ayağın dəyən torpaq,
əsirlikdən qurtarır.
Sən qalxan ucalığa,
dağlar həsəd aparır,–
Azərbaycan əsgəri.

Vətən üçün canından,
keçməyə də hazırsan.
Qəhrəmanlıq tarixin,

al qanınla yazırsan,-
Azərbaycan əsgəri.

Saxta tarix yazanın,
niyyəti pozulacaq.
Sənin rəşadətindən,
dastanlar yazılacaq,-
Azərbaycan əsgəri.

Tarix mat qalıb sənə,
zamana dur, deyirsən.
Sən verib öz hökmünü,
komandir, vur, deyirsən,-
Azərbaycan əsgəri.

Düşməni nişan alan,
gözünə qurban olum.
Yurduma naxış vuran,
izinə qurban olum,-
Azərbaycan əsgəri.

Millətin qürurunu,
sən özünə qaytardın.
Qalibiyyət bayrağın,
zirvələrə apardın,-
Azərbaycan əsgəri.

Özünü dərk edəndə,
millət qüdrətli olur.
Hər oğulu, hər qızı,
qorxmaz, cürətli olur,-
Azərbaycan əsgəri.

Düşmənin namərdliyi,
südündə, qanındadı.
Məğrurluğun, qürurun,
səninsə soyundadı,-
Azərbaycan əsgəri.

Qədim tariximizə,
varlığın zəmanətdir,
Ululardan bu günə,
yurdumuz əmanətdir.

**Azərbaycan əsgəri.**

Özünə qayıdacaq,
hər yurdun dogma adı.
Yüksələn bayrağımız,
zirvədən də ucadı,-
Azərbaycan əsgəri.

Qələbə soraqları,
düşmənin belin qırıb.
Yumruq kimi birləşib,
arxanda millət durub,-
Azərbaycan əsgəri.
İşğaldakı torpağı,
qarış-qarış alırsan.
Döyüş meydanlarında,
şanlı zəfər çalırsan,-
Azərbaycan əsgəri.

Bu gün qalibsən artıq,
düşmənə vermə möhlət.
Xilaskar ordusuna,
sənə güvənir millət,-
Azərbaycan əsgəri.

Ali Baş Komandan da,
igid ər tək döyüşür.
Dünya hərb meydanında,
bir əsgər tək döyüşür,
Azərbaycan əsgəri,
Azərbaycan əsgəri.

F.Köçərli adına Respublika Uşaq Kitabxanasıda "İgidlərimiz tarix yazır " adlı rəsm sərgisi təşkil edidi. Sərgidə nümayiş olunan 27 rəsm əsərində "Vətən müharibəsi" hadisələri əks etdirilmişdi. Rəsm əsərlərində şagirdlər "Vətən müharibəsi" şəhidlərinin qürur və qəhrəmanlıq nümunəsi olduğunu bir daha vurğuladılar. Rəsm əsərləri sərgiyə gələnlər tərəfindən maraqla qarşılandı. "27 Sentyabr Anım günü" münasibəti ilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filiallarında keçiriləcək tədbirlərdə "Qəhrəman əsgərlərimiz", "Cəsarətli ordumuz" adı altında müxtəlif sərgilər təşkil oluna bilər. Sərgidə istifadə olunan rəsmlərdən bir neçəsini sizə təqdim edirik.








Şuşa




1918

F.Köçərli adına Respublika Uşaq Kitabxanasının Nağıl otağında növbəti nağıl saatı təşkil olundu. Kitabxana əməkdaşları **“Rəşadətlə yaşayanlar-Ölümü fəth edənlər”** hekayələr toplusu kitabından **Vətən sənə oğul deyib güvənsin** nağılının səhnələşdirilmiş formada tədbir iştirakçılarına təqdim edirlər.




**I Metodist:** Metodist əvvəlcə kitab haqqında məlumat verir. Köçərli adına Respublika Uşaq Kitabxanası yeniyetmələrdə vətənpərvərlik tərbiyəsi və təbliğinin inkişafı istiqamətində vətən torpağına, millətə sədaqət hisslərini aşılamaq məqsədilə 27 senytabr Anım Gününə həsr olunmuş "Rəşadətlə yaşayanlar - ölümü fəth edənlər" adlı ümumrespublika hekaye müsabiqəsi keçirib. Müsabiqənin keçirilməsində əsas məqsəd yeniyetmələr arasında hərbi vətənpərvərlik ruhunun yüksəldilməsi, onlara milli həmrəylik və qəhrəmanlıq kimi ülvi hisslərin aşılanması, Vətənimizin suverenliyi uğrunda Azərbaycan əsgərinin döyüş rəşadəti və şəhidlərimizin xatirəsinin əbədiləşdirilməsi məqsədilə gələcək nəsillər üçün yeni bədii mətnlərin yaradılması, yaradici potensialı olan hər bir kəsi müsabiqəyə cəlb etməklə mövzu baxımından müasir ədəbi əsərlərin yazılmasına stimul verməkdir. Kitaba münsiflər heyətinin qərarı ilə 25 hekayə daxil edilmişdir. Oxuculara təqdim olunan kitabda toplanmış hər bir hekayə şəhidlərin unudulmaması və gənc nəslin vətənpərvərlik ruhunda tərbiye edilməsində çox faydalı olacaqdır. Hekayələrə rəsmlər hekayə müəllifləri və digər məktəblilər tərəfindən çəkilmişdir.

**II Metodist:**, Nəsimi rayonu, 14 nömrəli məktəbin 11-ci sinif şagirdi Əli Asim oğlu Məmmədovun “Şəhid atası” hekayəsini sizlərə təqdim edirik.

Hər gün ata öz oğlu ilə telefonda danışır, hal-əhval tuturdu. Oğlu həm universitetdə oxuyur, həm də axşamlar işləyirdi. İstəyirdi ki, kiraye qaldığı evin pulunu özü versin, ata-anasına yük düşməsin. Ailənin böyük oğlu idi. Özündən başqa bir bacı ve iki qardaşı vardı. 2020-ci ilin sentyabrında müharibə başlayanda o, könüllü olaraq cəbhəyə getmək üçün yazılır, amma bu haqda ailəsinə bildirmir ki, nigaran qalmasınlar. Artıq neçə gün idi ki, atanın ürəyi çox narahat idi. Telefon zənglərinə isə bir cavab gəlirdi: "Telefon ya söndürülüb, ya da əhatə dairəsi xaricindədir". Oğlundan bir xəbər tuta bilmirdi. Naəlac qalıb bacısı oğlunu götürüb Bakıya gəldi. Öyrəndi ki, oğlu cəbhədədir. Həmin an vaxtilə izlədiyi "Əsgər atası" gürcü filmi yadına düşdü. O, hərbi komissarlığa gəlib oğlunun getdiyi hissəyə könüllü getmək istədiyini bildirdi. Amma onun bu istəyi baş tutmadı.Gözləri çox zəif gördüyündən döyüşə yararsız idi. Bir neçə dostunun köməyi ilə döyüşlərin Füzulidə getdiyini öyrəndi. Ora getdi. Amma orada da qarşısına sədd çəkdilər. Nəhayət yaralılara kömək etmək istəyi ilə çadırda yerləşən hərbi hosbitala gəldi. Hospitalda döyüş bölgəsindən gələn yaralılara, tibb bacılarına kömək edirdi. Oğluna hər gün zəng edir, amma ondan cavab almırdı. Artıq əlini hər yerdən üzmüşdü. Hospitalın yanındakı çadırda şəhidləri yerləşdirir, kimlikləri təyin olunandan sonra ünvanlarına yola salırdılar. Hər dəfə istəyirdi ki, ora getsin, şəhidlərin içində, bəlkə oğlunu axtarsın, amma .... Bir gün yan çadırdan şəhidlərin siyahısını oxuyan həkimlərdən oğlunun adını eşitdi:

-Əli!

Qulaqlarına inanmadı. Bir an müvazinətini itirdi. Gözlərinə duman çökdü, sonra fikirləşdi ki, bəlkə, o deyil başqasıdır…Yavaş-yavaş çadıra girdi. Şəhidlərin bir- bir üzünə örtülmüş mələfəni qaldırdı. Oğlunu gördü. Aman Allah…

Şəhid oğulu atasına əmanət edib, yola saldılar. Bütün kənd cəsur, qəhrəman şəhid oğulu - Əlini son mənzilə yola salırdı. Beli bükülən ata onun məzarı önündə bu sözləri dedi: "Vətən sevgisi onun üçün əziz oldu. Dedilər ki, Əli döyüşlər zamanı göstərdiyi şücaətə görə seçilib. O, komandirini qoruyub və qəhrəmancasına şəhid olub. Biz bütün şəhid övladlarımızla fəxr edirik. Çünki onların sayəsində Vətənimiz yağı düşmənin tapdağından xilas edildi, şəhidlərimiz özlərindən əvvəlki şəhidlərin də qisasını aldılar".

Şəhid atası: Mən uşaq olanda "Əsgər atası" filmini tez-tez göstərirdilər. Bu filmi çox sevirdim, nə qədər göstərsələr də, yenə də həvəslə baxırdım. Bu filmə nə qədər baxmışdımsa da, bir dəfə də olsun ağlamamışdım. Ancaq bu gün bu filmi təkrar izlədiyimdə göz yaşlarıma hakim ola bilmədim. Ata ilə oğulun cəbhədə görüşdüyü səhnədə göz yaşlarına boğuldum. Mən də oğul yolu gözləyən, oğlunun dalınca ölümü gözə alaraq, uzaq yol qət eləyib cəbhəyə yollanan əsgər atası kimi əliboş geri döndüm.

Amma torpaqlarımızı geri aldıq. Düz deyiblər ki, torpaq uğrunda ölən varsa, Vətəndir. İndi kənd camaatı tez-tez mənə baş çəkir. Onlar deyir ki, indi sən yox, biz də şəhid Əlinin atasıyıq.

Şəhid atası hamı evinə dağılandan sonra divardan asılan sazını götürüb döşünə sıxır, "Ruhani"ni çalır, şəhid balası ilə dərdləşir.

Kitabda digər şagirdlərin də qələmə aldığı nağıllar da

yer almışdır. Mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filiallarında keçirilən tədbirlərdə bu nağıllardan istifadə olun bilər.



























Quluzadə Əlamdar 641-cü şəhid

https://drive.google.com/file/d/1wLGLjVHO8pMia3XW4_f1SuqYMRu2PQv1/view

Cəbrayıl şəhidləri

https://drive.google.com/file/d/1xc2te8WZktlQ2c3xlc0ZgHRXocU2DF7-/view

Uşaq kitabxanalarında Anım günü ilə əlaqədar olaraq "Vətənimin şəhidi" adlı şeir müsabiqəsinin də keçirilməsi məqsədəuyğundur. Müsabiqənin keçirilməsində əsas məqsəd uşaq və yeniyetmələri vətənpərvərlik ruhunda tərbiyə etmək, doğma vətənə şeir vəsf etmək hisslərinin inkişafı, şeir yazmaq sənətinə marağın artırılması və bu sahədə xüsusi istedada malik uşaq və yeniyetmələrin aşkarlanmasıdır.
Müsabiqənin şərtləri:
Müsabiqəyə yalnız 1 iştirakçı tərəfindən 1şeir təqdim edilə bilər;
Mətnin həcmi 2 A4 formatından çox olmamalı;
Müsabiqə iştirakçılarının yaş həddi 7-17 yaş arası;
Şeir təqdim edilərkən müəllif özü haqqında məlumatı (ad, soyad, ata adı, oxuduğu təhsil müəssisəsi, bölmə, sinif, telefon nömrəsi, elektron poçt ünvanını) təqdim etməlidir;
Müsabiqənin müddəti şeirlərin son qəbul tarixi
Mövzu:
Vətənpərvərlik.
Qaliblərin seçilməsi və mükafatlandırılması:
"7-17" yaş arası bütün uşaqlar müsabiqədə iştirak edə bilər;

Müsabiqədə iştirak etmək istəyən uşaqlar şeirləri özləri yazmalı;

Şeirlər F.Köçərli adına kitabxananın elektron poçt ünvanına göndərilməlidir:

info@clb.az

ushaqkitabxanasi@gmail.com

childlibbaku@yahoo.com

I Yerə layiq görülən şagirdə Ələmdar Qukuzadənin “614-cü Şəhid” kitabı hədiyyə olunacaqdır. Ələmdar Quluzadə üçün sevənlərin ürək çırpıntısı, həyat şərqisi, dünyanın və zamanın bütün qatlarına bələd sərraf gözü, haqq tərəzisi, düşmənlə üz-üzə vuruşan əsgərin ovxarlı qılıncı, kədərli silahıdır. O, müasir ədəbiyyatımızda sadə, səmimi şeirləri ilə ürəkləri əla alan, fəlsəfi fikirləri ilə oxucuları düşündürən incə yumorlu, bənzərsiz uşaq yaradıcılığı ilə balalarımızı sevindirən, mayası vətənə, millətə məhəbbət, düşmənə nifrətlə yoğrulan sanballı poemaları ilə vətən övladlarını yağıya qarşı səfərbər etməyə qadir şairdir. Çoxlu sayda şeirləri ilə yanaşı, Ələmdarın "Qarabağ oyunu", "Şəhid şəhər", "Alay komandiri", "İlmələrin dastanı", "Şəhid bacısı" poemaları və "Pənah evi" mənzum faciəsi də bu ağrıya həsr edilib. İstəyirəm onun Xocalıya həsr etdiyi "Şəhid şəhər" poeması haqqında qısaca söz açım. Təxminən 1500 misraya yaxın olan "Şəhid şəhər" poemasında müəllif lirik-publisistik bir tərzdə Qarabağda baş verən hadisələr bütün təfərrüatı ilə poetik təhkiyənin əsasına çevrilir. O, Xocalı faciəsinin yaranması səbəblərini açıqlayır, kimlərin günahkar olduğunu nişan verir.

“614- cü Şəhid” kitabını geniş yaradıcılıq imkanlarına malik şairin növbəti uğuru, qanlı Qarabağ salnaməsinin davamı hesab edir və yenədə geniş oxucu kütləsinin rəğbətini qazanacağına inanırıq.

“614- cü Şəhid” Kitabından olan 614-cü Şəhid şeirini ixtisarla sizə təqdim edirik.

Qoy odlasın bu dünyanı
Acı dilim, od nəfəsim
Ölüm mənim vüsalımdı,
Həyat mənim daş qəfəsim.

Qılıncını qından sıyır.
Qumbaranı tax kəmərə,
Alçaq düşmən el qaldırıb
Ağbirçəyə, südəməra

İçimizdən, çölümüzdən
Başımızı qatan qatdı,
Bir gecədə Şəhidlərim
613-ə çatdı.

Vətənimi fitnə boğdu,
Millətimi söz aldatdı.
Yerdə qalan bu qan bizi
İliyəcək sızıldatdı.

Ağlayanın kini olmur,
Ağrıyanın daş səbri yox.
Külə dönən Xocalıda
Şəhidlərin bir qəbri yox.

Vətənimin bağlı qalan
Yollarına qurbanım var.
614-cünün
Qollarına qurbanım var.

Torpağımın havasını
Yağılara haram edək.
614-cüyə
Xocalıda bayram edək.

Düşmənlərə göstərəcək
Vətən oğlu öz gücünü.
Hansı ana doğub görən
614-cünü?

8 iyun tarixində F.Köçərli adına Respublika Uşaq Kitabxanasında yazar, Azərbaycan Jurnalistlər Birliyinin üzvi Əziz Sultanın "Zəfər yolunda 44 gün" kitabının təqdimatı baş tutdu. Tədbirdə "Könüllülük fəaliyyətinin təbliği" Gənclər İctimai Birliyinin idarə heyyətinin üzvi İsmət Əmrahov, 8 və 21 saylı tam orta məktəbin müəllim və şagird kollektivi, digər qonaqlar iştirak etdi. Təqdimat respublikamızın ərazi bütövlüyünün qorunması, bərpası və torpaqlarımızın işğaldan azad edilməsi uğrunda döyüşlərdə şəhidlik zirvəsinə ucalan Vətən övladlarının xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başladı. Kitab təqdimatının əsas məqsədi döyüşkən ruhlu vətən oğullarının və ümumiyyətlə xalqın birliyi, mərdliyi, sücaəti və fədakarlığı daha yaxşı anlaşılması idi. . Bu hadisələr gələcək nəsillərdə milli şüurun, özünədərkin formalaşmasına xidmət edən tarixi sərvətimizdir və bunları keçmişi gələcəyə

bağlayan ən möhkəm körpülər olan kitab səhifələrinə əks etdirmək ən zəruri bir ehtiyacdır. Vətən yolunda tökülən hər damla qan, hər damcı tər müqəddəsdir. Odur ki, istər döyüş meydanında , istərsə də arxa cəbhədə yaşanan belə tarixi anları gələcək nəsillərə ötürmək Ana Vətənə qarşı vəfa borcudur. Sonra tədbiri giriş sözü ilə F.Köçərli adına Respublika Uşaq Kitabxanasının direktoru Şəhla Qəmbərova açaraq gənc yazarın əbədi fəaliyyəti haqqında iştirakçılara ətraflı məlumat verdi. Qeyd edildi ki, yazarın ilk şeiri 1993-cü ildə Türkiyədə "Altın çocuk" uşaq jurnalında nəşr olunub və sonrakı illərdə "Uğur", "İrfan", "Təbəssüm" kimi jurnallarda, bir çox internet saytlarında zaman-zaman hekayə və şeirləri işıq üzü görüb. Onun ilk kitabı "Adəmin yuxusu" (2013) və "Ən gözəl hədiyyə" (2013) kitabları olub. Daha sonra "Xəzinə" (2014), "Sehrli sandıq" (2015), "Vətən çağıranda" (2017), "Hekayələrlə hikmətlər" (2017), "Qarışqa uşaq" (2019) kimi nağıl, hekayə və fantastik janrda macəra kitabları nəşr olunub. Müəllif həmçinin tarixi şəxsiyyətlərin gənc nəsillərə tanıdılması məqsədi ilə qələmə aldığı "Seyid Yəhya Bakuvi" (2017), "Qardaşlıq dastanı və Nuru paşa" (2018), "Bakıdakı son osmanlı – Novruz baba" (2019) kimi əsərlərin də müəllifidir. Digər çıxış edənlər kitabın əhəmiyyətindən söz açdılar. Görüşdə məktəblilər Vətənə, şəhidlərə və bayrağa həsr olunmuş şeirlər söylədilər, Xudayar təsnifini ifa etdilər. Çıxış edən Əziz Sultan kitabda yer almış hekayələrdən hər birinin yaşanmış hadisələr və real faktlar

əsasında yeniyetmə və gənclər üçün qələmə aldığını söylədi və uşaqlara həsr olunmuş şeirini oxudu.













Tədbirin sonunda yazarın uşaqlara imzalı kitabı hədiyyə edildi. Tədbir müəllifin iştirakçılarla xatirə foto-şəkillərinin çəkilişi ilə başa çatdı.

03.11.2021-ci il tarixində F.Köçərli adına Respublika Uşaq Kitabxanasının təşkilatçılığı ilə 8 noyabr - Zəfər gününə həsr olunmuş "Rəşadətlə yaşayanlar - Ölümü fəth edənlər" adlı ümumrespublika hekayə müsabiqəsinin yekun mərhələsi "LİBRAF" Kitab Evində baş tutdu. Hekayə müsabiqəsinin keçirilməsində əsas məqsəd uşaq və yeniyetmələrdə hərbi vətənpərvərlik ruhunun yüksəldilməsi, milli həmrəylik və qəhrəmanlıq kimi ülvi hislərin aşılanması, vətənimizin suverenliyi uğrunda Azərbaycan əsgərinin döyüş rəşadəti və şəhidlərimizin xatirəsinin əbədiləşdirilməsi məqsədilə gələcək nəsillər üçün yeni bədii mətnlərin yaradılması, yaradıcı potensialı olan hər bir kəsi müsabiqəyə cəlb etməklə mövzu baxımından müasir ədəbi əsərlərin yazılmasına stimul verməklə istedadlı gəncləri üzə çıxarmaq idi.

Tədbir Vətən müharibəsi şəhidlərinin əziz xatirəsini bir dəqiqəlik sükütla yad edilməsi ilə başladı.

Təqdimatı giriş sözü ilə açan F.Köçərli adına Respublika Uşaq kitabxanasının direktoru, Əməkdar Mədəniyyət işçisi Şəhla Qəmbərova çıxışında bildirdi ki, hekayələrin hər birini oxuduqda, bir insan ömrünün taleyinə yazılmış qəhrəmanlıq salnaməsinə diqqət yetirdikdə, dəyişməyən bir həqiqətin şahidi olursan. İnsanlarda anadangəlmə hiss, duyğu olan, nəyinsə, kiminsə naminə canından belə keçmək cəsarəti məqamı yetişəndə başqalarından fərqli xüsusiyyət mütləq özünü büruzə verir. İnsanı məhkum etmək olar, lakin şücaəti, mərdliyi,

vətənpərvərliyi şərəfi və fədakarlığı boğmaq olmaz. Milli mənsubluğuna görə fərqlənən bu keyfiyyət insanın daxili gücünün, qətiyyətinin, bəzən də barışmazlığın, ədalətsizliyə qarşı mübarizliyin nümunəsi, məkanı isə müqəddəs sayılan şəhidlik zirvəsi olur.

F.Köçərli adına Respublika Uşaq Kitabxanası hərbi vətənpərvərlik mövzusunda bir çox tədbir və layihələr həyata keçirmişdir. Xalgımız bu qələbə sevincini yaşadan qəhrəman oğullarınımızı illər, hətta əsrlər keçsə belə unutmayacaq, daim adlarını qürür hissi ilə anacaq. Ş.Qəmbərova vurğuladı ki, hekayələrin hər biri böyük vətənpərvərlik hissi ilə yazılıb.

Kitabın ideya və ön sözünün müəllifi Zahirə Dadaşova çıxışında yalnız Vətəni müqəddəs sayaraq canından keçməyi bacaran qəhrəmanlar yetirən xalqın şəhidi olmasını qeyd etdi. “Ünvansız məktub”, “Şəhid qardaşım” hekayəsində şəhidlik zirvəsinə ucalan övladlarının şücaəti, oğul itkisinə mətanətlə dözən müqəddəs anaların dəyanəti göstərilir. “Ölməzliyə qovuşan Cəbrayıl” və “Biri vardı, bir yox…” hekayələrində uşaqlar Azərbaycanın xoşbəxt gələcəyini, şəhid şəhərlərin abad, firavan olduğunu, şəhidlərin heç vaxt unudulmadıqlarını ürəklərinin səsi ilə qələmə alıblar. Kitabdakı hekayələr və şəkillər uşaq və yeniyetmələrə aiddir.

Müsabiqə çərçivəsində təqdim olunan hekayələrdən 25-i münsiflər üzləri tərəfindən seçilərək “Ölümü fəth edənlər” adlı kitaba daxil edilib. Kitab “Təhsil” nəşriyyatında nəşr olunub.

Təqdimatda şəhid ailələri, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin kitab sənayesi şöbəsinin əməkdaşı

İslam Hüseynov,  Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Uşaq problemləri şöbəsinin əməkdaşı Günel Nağdəliyeva, uşaq yazarlarından Zahid Xəlil, kitabın redaktoru Sevinc Nuruqızı, Mehriban Nağıyeva, Mina Rəşid, publisist  Nəzakət Məmmədova, "Təhsil" nəşriyyatının direktoru Tural Axundov, hekayə müsabiqəsinin qalibləri, hekayələrə rəsm çəkən uşaqlar, KİV-in nümayəndələri  və digər qonaqlar iştirak etdilər.

Tədbir çərçivəsində çıxış edən qonaqlar müsabiqənin əhəmiyyətini vurğuladı.

Sonda müsabiqə qaliblərinə diplom, Xarıbülbül döş nişanı və kitab hədiyyələri təqdim edildi.

















İkinci Qarabağ müharibəsində qəhrəmancasına vuruşmuş, vətən uğrunda canından keçmiş şəhidlərimizi ehtiramla anırıq.

Allah rəhmət eləsin. Şəhidlər ölməz, Vətən bölünməz!

Ürəklərə acı, vətən torpağına şərəf verdiniz. Biz Onların hamısını tanımasaq da, Onların hamısına borcluyuq! Qarabağ artıq azaddır... Allah cəmi şəhidlərimizə rəhmət eləsin, məkanları Cənnət, ruhları şad olsun. Vətən müharibəsində əzmkarlıqla döyüşərək böyük qəhrəmanlıqlar göstərmiş, Azərbaycanın yenilməz Bayrağını erməni işğalından azad edilən torpaqlarımızda qürurla dalğalandırmış, ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda şirin canından keçmiş, xalqımıza böyük Zəfərin sevincini yaşatmış əsgər və zabitlərimizi, bütün şəhidlərimizi dərin ehtiramla yad edirik.

Firudin bəy Köçərli adına respublika Uşaq kitabxanası vətənimizin torpaqları uğrunda canından keçən Milli qəhramanlarımızın, şəhidlərimizin ruhunu əziz tutaraq hər gün kitabxananın elektron saytında, **“Tarixdə bu gün”** bölməsində onların doğum günülərini qeyd edərək, yad edirlər. Bu təşşəbüsün mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filiallarında da keçirilməsi məqsədə uyğundur.

**F. Köçərli adına Respublika Uşaq kitabxanasının Məlumat və biblioqrafiya şöbəsinin kitabxananın fondu əsasında hazırladığı ədəbiyyat siyahısı**

Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin Anım Günü ilə əlaqədar xalqa müraciəti (27 sentyabr 2021-ci il) // Xalq qəzeti. - 2021. - 28 sentyabr. - № 207. - S. 1-2.

Azərbaycan Respublikasında Anım Gününün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (2 dekabr 2020-ci il) // Azərbaycan : qəzet. - 2020. - 3 dekabr. - № 253. - S. 1.

**Fərəcova Z.** Zəfər salnaməmizin başlanğıc günü // Azərbaycan. - 2021. - 1 oktyabr. - № 210. - S. 8.

**Həsənov İ.** Bayraqların hər biri əbədi müstəqillik və azadlıq atəşinin parlaq rəmzi idi // Xalq qəzeti. - 2021. - 29 sentyabr. - № 208. - S. 14.

**Hüseynova İ.** Unutmamalıyıq, unutdurmamalıyıq // Azərbaycan. - 2021. - 29 sentyabr. - № 208. - S. 9.

**İmanquliyev B.** Anım günü Zəfərimizin ideoloji cəbhədə davamıdır // Azərbaycan. - 2021. - 1 oktyabr. - № 210. - S. 8.

**Məmmədov C.** Şanlı zəfərimizin bir ili // Respublika. - 2021. - 30 sentyabr. - № 209. - S. 8.

**Mirzə M.** Şanlı Qələbə : Vətən müharibəsi Azərbaycan xalqının əzmini, iradəsini bütün dünyaya göstərdi // Respublika. - 2021. - 29 sentyabr. - № 208. - S. 9.

**Musayeva Y.** Haqqın Zəfər yürüşü : Müzəffər Sərkərdənin qüdrətli Ordusu // Azərbaycan. - 2021. - 29 sentyabr. - № 208. - S. 1, 10.

**Müsəllimov M.** Milli qürurumuzun təntənəsi // Respublika. - 2021. - 29 sentyabr. - № 208. - S. 9.

**Mustafayev F.** Qürur və ehtiramla anılan gün // Respublika. - 2021. - 30 sentyabr. - № 209. - S. 8.

**Paşayeva Q.** 200 ilin 44 günü - Anım Günü : 27 sentyabr - Azərbaycan Şəhidlərini Anım Günü ərəsfəsində // Xalq qəzeti. - 2021. - № 206

**Qasımov E.** Şərəf və ləyaqət zülmə və şərə qarşı : 2020-ci il sentyabrın 27-si Azərbaycanın çağdaş tarixində müstəsna yer tutur // Respublika. - 2021. - 28 sentyabr. - № 207. - S. 11.

**Quluzadə Ş.** Şəhidlər: Şərəf və İftixarımız // Respublika. - 2021. - 29 sentyabr. - № 208. - S. 9.

**Rzayev T.** Zəfər yolunun başlanğıcı // Azərbaycan. - 2021. - 29 sentyabr. - № 208. - S. 8.

**Salmanlı R.** Şanlı tariximiz // Azərbaycan. - 2021. - 1 oktyabr. - № 210. - S. 8.

# Bir dəqiqəlik sükut....

**(metodik vəsait)**

**Komputer yığımı**
**və dizayn:** **Ülkər Cabarova**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı:** **www.clb.az**